| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | EDU 101, Təhsilə giriş, 6 AKTS |
| | **Departament** | Təhsil |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim(lər)** | Lamiyə Hacıyeva |
| | **E-mail:** | lamiya.hajiyeva@khazar.org |
| | **Mühazirə otağı/Cədvəl** | Bakıxanov korpusu |
| | **Məsləhət saatları** | Razılaşdırılaraq təyin etmə ilə |
| **Prerekvizitlər** | - | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | ***Əsas dərsliklər:***<br>1. A. Süleymanova – Təhsilin əsasları (2014)<br>2. Gültekin Mehmet. Təhsil elminə giriş. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2018.<br>***Əlavə mənbələr:***<br>1. Ə.M.Abbasov, İ.A.Cavadov, B.O.İbadova, K.R.Quliyeva, İ.H.Sultanova, S.E.Cavadova Kurikulum bələdçisi (izahlar və tətbiqlər) Bakı, “Elm və təhsil”, 2019<br>2. Ümumtəhsil məktəblərində tərbiyə işinin təşkili. Bakı, ARTİ 2023 Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu), B: 2006,29s.<br>3. Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası.www-qanun. az/famework/16061<br>4. Hüseynzadə R.Səriştəli müəllim kadrlarının hazırlığı təhsilin keyfiyyətinin yüksəldilməsinin mühüm amili kimi. “Müəllim hazırlığının aktual problemləri və modernləşdirilməsi” kitabında.B: Mütərcim, 2015,s.76-130<br>5. İlyasov M. Müəllim peşəkarlığı və və pedaqoji səriştəliliyin müasir problemləri.B: Elm və təhsil, 2018,s.17-41.,92-976. | |
| **Kursun təsviri** | Bu fənn pedaqogika elminin əsas anlayışlarını, təlim və tərbiyə prosesinin mahiyyətini, qanunauyğunluqlarını və müasir yanaşmalarını əhatə etməklə gələcək müəllimlərin formalaşmasına yönəlmişdir. Fənn çərçivəsində tələbələr dövlətin təhsil siyasətinin əsas prinsipləri, təhsil sisteminin strukturu, təhsildə məzmun islahatları, qiymətləndirmə və idarəetmə məsələləri ilə tanış olur, eyni zamanda tərbiyənin mahiyyəti, prinsipləri, metodları və şagirdlərdə dəyərlərin formalaşdırılması yolları üzrə nəzəri və praktik biliklər əldə edirlər. | |

| | | | |
|---|---|---|---|
| **Kursun məqsədləri** | Bu fənnin məqsədi tələbələrə pedaqogika elminin əsas anlayışları, təlim və tərbiyə prosesinin mahiyyəti və qanunauyğunluqları, müasir təhsil yanaşmaları və innovasiyalar haqqında sistemli biliklər vermək, eyni zamanda təlim-tərbiyə, qiymətləndirmə və idarəetmə texnologiyalarının tətbiqi ilə bağlı ilkin bacarıqlar formalaşdırmaqdır. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | ***Kursun sonunda tələbələr nəyi bilməlidirlər və bacarmalıdırlar:***<br><br>– pedaqogikanın əsas anlayışlarını və kateqoriyalarını izah edir;<br>– müasir təhsil yanaşmalarının və pedaqoji innovasiyaların mahiyyətini açıqlayır;<br>– müəllimlik peşəsinin sosial əhəmiyyətini və cəmiyyətdəki rolunu izah edir;<br>– müəllimin əsas peşə kompetensiyalarını və pedaqoji səriştəlilik göstəricilərini fərqləndirir;<br>– pedaqoji mədəniyyət və pedaqoji ustalığın əsas komponentlərini sadalayır və şərh edir;<br>– təlim-tərbiyə prosesində tətbiq olunan müasir təlim texnologiyalarını təsvir edir;<br>– interaktiv təlim metodları ilə bağlı nəzəri biliklərini sadə praktik nümunələrdə tətbiq edir;<br>– təhsil prosesində etik davranış və peşə məsuliyyətinin əhəmiyyətini izah edir. | | |
| **Tədris metodları** | **Qrup müzakirəsi** | + | |
| | **Praktiki tapşırıqlar** | + | |
| | **Digər** | | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Fərdi təqdimatlar** | Dekabr | 5 |
| | **Tapşırıqlar** | Semestr ərzində | 5 |
| | **Yoxlama ( 4 quiz)** | Semestr ərzində | 20 |
| | **Qrup işləri** | Semestr ərzində | 5 |
| | **Aralıq imtahanı** | Noyabr | 30 |
| | **Final imtahanı** | Yanvar | 35 |
| | **Yekun** | | 100 |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | – Fənn üzrə ümumi məlumatlar dərs zamanı tələbələrə təqdim olunacaqdır. | | |

| | |
|---|---|
| | – Yeni mövzular əyani vəsaitlərdən (PPT təqdimatları və video materiallar) istifadə edilməklə izah ediləcəkdir.<br>– Aralıq və yekun imtahanlardan əvvəl tələbələrin mövzuları mənimsəmə səviyyəsi qısa yoxlama tapşırıqları (quizlər) vasitəsilə qiymətləndiriləcəkdir.<br>– Dərs prosesində tələbələrin əvvəlki mövzuları mənimsəmə səviyyəsi şifahi və yazılı sorğular əsasında mütəmadi olaraq qiymətləndiriləcək, semestrin sonunda isə ümumi fəallıq balı müəyyən ediləcəkdir.<br>– Semestr ərzində tələbələr tərəfindən fərdi mövzularda təqdimatların hazırlanması nəzərdə tutulur. Təqdimatın müddəti müzakirə daxil olmaqla 15 dəqiqədən artıq olmamalıdır. Təqdimat mövzuları və tələbləri barədə dərslər zamanı ətraflı məlumat veriləcəkdir.<br><br>***Davamiyyət***<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs (8 qayib) buraxan tələbələr imtahana buraxılmır. (3 qayıb = 1 bal). Tələbə dərsə 15 dəqiqədən artıq gecikmişdirsə, tələbəyə qayib yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır.<br><br>***Quiz***<br>Tələbələrin mənimsəmə səviyyələrini yoxlamaq üçün semestr ərzində 4 dəfə Tapşırıq quiz təşkil olunacaq. Hər quiz 0-5 bal üzərindən dəyərləndiriləcək. Quizin məqsədi şagirdin dərs ərzində öyrəndiklərini yoxlamaq və gedişata nəzarət etməkdir. Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.Müəllim və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən quizdə iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.<br><br>***İmtahanlar***<br>Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. İmtahanlarda mövcud qaydaların pozulması (köçürmə cəhdləri, köçürmələr, imtahanın gedişini pozmaq və digər qanunsuz hərəkətlər) hallarında tələbənin imtahan işi ləğv olunur.<br><br>***Tələbənin kursu başa vurması***<br>60% və daha artıq bal toplamış tələbə kursu bitirmiş hesab olunur. Final imtahan nəticəsi 100 baldan 57, 58 və ya 59 bal taplayan tələbələr |

| | | | |
|---|---|---|---|
| | | dekanlığın icazəsi ilə tamamlama imtahanına müraciət edə bilərlər.<br><br>***Dərslərdə davranış***<br>Tələbə dərs zamanı müvafiq akademik şəraitin yaradılması üçün mümkün olan hər şeyi etməlidir. İcazəsiz danışığa, lüzumsuz hərəkətlərə və s. qeyri-etik davranışa qətiyyən yol verilmir.Tələbə dərsdə fəal şəkildə iştirak etməli, lazım olduqda suallar verməli və müzakirələrdən kənarda qalmamalıdır. Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq, həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefonlardan istifadə qadağandır. | |
| **Cədvəl (dəyişdirilə bilər)** | | | |
| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
| 1. | | Kursun sillabusu ilə tanışlıq Pedaqogikanın ümumi məsələləri. Pedaqoji anlayışlara yeni yanaşmalar.Valeologiya və didaktogeniya | A.Süleymanova "Təhsilin əsasları", Bakı – 2014.<br><br>Gültekin Mehmet. Təhsil elminə giriş. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2018. Bölmə 1. Səh 14-30. |
| 2. | | Şəxsiyyətin inkişafı və sosiallaşmasının qanunauyğunluqları | Gültekin Mehmet. Təhsil elminə giriş. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2018. Səh 32-57 |
| 3. | | Səriştəli müəllim hazırlığının problemləri. Müəllimin peşə kompetensiyaları. | M.Gültekin Təhsil elminə giriş. Bakı,2018. Fəsil İX A.Süleymanova"Təhsilin əsasları", Bakı – 2014. s-34-45 |
| 4. | | Pedaqoji proses. Innovativ pedaqoji texnologiyalar. Təlimin fəlsəfi mahiyyəti, psixopedaqoji əsasları **Quiz 1** | A.Süleymanova "Təhsilin əsasları", Bakı – 2014.s-56-67 |
| 5. | | Təhsilin məzmununa ənənəvi və müasir yanaşmalar (standartlar və kurikulumlar) | A.Süleymanova "Təhsilin əsasları", Bakı – 2014.s-89-98<br>M.Gültekin Təhsil elminə giriş. Bakı,2018. s-120-134 |
| 6. | | Təlim prinsipləri və onların tətbiqi imkanları | A.Süleymanova "Təhsilin əsasları", Bakı – 2014. s-167-178 |
| 7. | | Təlim texnologiyaları və onlardan | A.Süleymanova "Təhsilin |

| | | | |
|---|---|---|---|
| | | istifadə (təlim üsulları, yeni yanaşmalar, interaktiv əlim metodlarının tətbiqi imkanları)<br>**Quiz 2** | əsasları", Bakı – 2014.s-134-156 |
| **Aralıq imtahanı** | | | |
| 8. | | Təlimin təşkili formaları və onlardan istifadə imkanları. Sinfin təşkili və idarəolunması texnologiyası. | A.Süleymanova. Təhsilin əsasları. Bakı 2014. s-145-156 |
| 9. | | Şagird nailiyyətlərinin qiymətləndirilməsi | A.Süleymanova "Təhsilin əsasları", Bakı – 2014. s-165-175 |
| 10. | | Tərbiyənin mahiyyəti. Tərbiyə insiplərinə<br>yeni yanaşmalar | İnternet resursları. (tələbələrə veriləcək) |
| 11. | | Tərbiyə metodları və texnologiyaları, məktəb təcrübəsində onlardan istifadə imkanları<br>**Quiz 3** | A.Süleymanova "Təhsilin əsasları", Bakı – 2014. s-178-179 |
| 12. | | Tərbiyə metodları və texnologiyaları, məktəb təcrübəsindəonlardan istifadə imkanları | Gültekin Mehmet. Təhsil elminə giriş. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2018. s-189-200 |
| 13. | | Tərbiyənin məzmunu və şagirdlərdə dəyərlərin formalaşdırılması yolları<br><br>**Quiz 4** | Gültekin Mehmet. Təhsil elminə giriş. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2018. 200-210 s-134-156 |
| 14. | | Müasir dövrdə şagirdlərin tərbiyəsində məktəb,<br>ailə və ictimaiyyətin birgə işinin formaları | A.Süleymanova "Təhsilin əsasları", Bakı – 2014. s-134-156<br>İnternet resursları. |
| 15. | | Gənc müəllimlərə məsləhətlər<br>Fərdi təqdimatlar | |
| **Final imtahanı** | | | |